**Bakı Slavyan Universitetinin MƏZUN GÜNÜ keçirilib.**

**22.06.2025**



**Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyevin nitqi**

Hörmətli Azərbaycan Respublikasının gənclər və idman naziri, cənab Fərid Qayıbov,

Hörmətli Millət vəkilləri, rəsmi qonaqlar,

Hörmətli Bakı Slavyan Universitetinin müxtəlif illərdə məzunu olmuş həmkarlarım,

Hörmətli 2023-cü ilin Məzunları

Hər birinizi bu gözəl gündə, Xəzər dənizinin sahilində, bu gözəl məkanda salamlayıram.

**Əziz məzunlar!**

Hər birinizi məzun olmağınız münasibətilə sizi ürəkdən təbrik edirəm!

Bu gün siz həyatınızda ən mühüm tarixlərdən birini yaşayarsınız. Siz müstəqil həyatınızın növbəti mərhələsində, karyera xətti ilə yüksələcəyiniz iş dünyasına baş vuracaqsınız. Əminəm ki, bu dörd il ərzində qazandığınız bilik və bacarıqlar sizin iş həyatınızda sizə davamlı kömək edəcəkdir.

Yiyələndiyiniz peşədən asılı olmayaraq, hər biriniz dövlətimizin müstəqilliyini, xalqımıza məxsus nəcib dəyərləri qorumalı, Azərbaycanın daha da inkişaf etməsinə və güclənməsinə çalışmalısınız. Əminəm ki, bu gündən etibarən verdiyiniz bütün qərarların, atdığınız hər bir addımın əsasını xoş niyyət, xeyirxahlıq və ədalət təşkil edəcəkdir.

Bu gün, bu məkanda 1000-dən çox məzun, onlara dərs demiş müəllimlər və həmkarlarımız toplaşmışdır. Ulu Öndər Heydər Əliyevin 2000-ci ilin iyun ayında imzaladığı müvafiq fərmanla profili genişləndirilərək universitet statusu almış Bakı Slavyan Universiteti bu gün rəsmi olaraq 20-yə yaxın ixtisas üzrə ixtisaslaşmış 1000-dən çox məzununu ölkəmizin əmək bazarında çalışmağa göndərir. Sizin iş həyatınızdakı, karyeranızdakı uğurlarınız universitetimizin inkişafı və gələcək konturlarının müəyyən olunması baxımından mühüm əhəmiyyət kəsb edəcəkdir.

**Əziz məzunlar, həmkarlar və qonaqlar!**

Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan edilib. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda elm və təhsil sahələrinə xüsusi həssaslıqla yanaşmış və daim qayğı göstərmişdir. Bu siyasətin uğurlu davamı olaraq bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında təshilin və elmin inkişafı, dünya ali təhsil sisteminə interqasiyası baş verir. Minlərlə Azərbaycan gəncinin dünyanın top 500 universitetində təhsil almaq imkanı, gənc doktorantların ən qabaqcıl tədqiqat mərkəzlərində işləmək və tədqiqat aparmaq imkanları müxtəlif dövlət proqramları vasitəsi ilə təmin edilir.

**Hörmətli qonaqlar,**

Bakı Slavyan Universitetinin əsas missiyası milli şüura malik, fundamental biliklərə yiyələnmiş, rəqabət qabiliyyətli, səriştəli, məsuliyyətli, öz peşəsini dərindən bilən, dünya standartları səviyyəsində səmərəli fəaliyyət göstərməyə, ixtisası üzrə peşə hazırlığı səviyyəsini daim artırmağa qadir olan, yaradıcı və innovativ yüksək ixtisaslı mütəxəssislər hazırlamaqdan ibarətdir.

Bakı Slavyan Universitetində 5 fakültə, 27 kafedra fəaliyyət göstərir. Tələbələrin sayı ali təhsilin 3 səviyyəsi üzrə 4800 nəfər təşkil edir. Ötən 3 ildə tədris olunan ixtisasların sayı əhəmiyyətli şəkildə artmış, hazırda ___ ixtisas üzrə bakalavr təhsili, __ ixtisas və ___ ixtisaslaşma üzrə magistr hazırlığı aparılır. Xüsusilə vurğulamaq istərdik ki, 2022/2023-ci tədris ilində BSU-da bakalavriatura səviyyəsində iki yeni ixtisas açılmış, 2023/2024-cü tədris ilindən etibarən isə bakalavriatura və magistratura səviyyələrində mövcud təhsil proqramları ilə yanaşı ümumilikdə beş yeni ixtisas üzrə tədris təşkil ediləcəkdir. Yeni ixtisaslarımız həm humanitar, həm də təhsil ixtisas qruplarında yer almaqla universitetimizin daha geniş sahələr üzrə kadr hazırlığına kömək edəcəkdir. Son 3 ilin artan qəbul statistikası Universitetimizin gələcək inkişaf predmetlərinin müəyyən edilməsində kömək edir.

Ümumilikdə 2022/23-cü tədris ilindən etibarən 7 yeni ixtisas üzrə tələbə qəbulu həyata keçirilir, universitetimizin beynəlxalq əməkdaşlıqları genişlənir, müəllim və tələbələrimizin tərəfdaş universitetlərə mübadiləsi daha da intensivləşir.

Qarşıdakı illərdə BSU-nun rəqəmsallaşmış ali təhsil məkanına çevrilməsi üçün addımlar atılır, strategiyamıza uyğun olaraq fəaliyyət planı həyata keçirilir.

Keyfiyyətin təminatı və səriştə əsaslı məzmunun yaradılması istiqamətində layihələr icra edilir, bir neçə ixtisas, o cümlədən ibtidai sinif müəllimliyi, məktəbəqədər hazırlıq kimi ixtisaslarda 2024-cü ilədək yeni məzmunun yaradılması istiqamətində əsaslı işlərin aparılması planlaşdırılır. Bu istiqamətdə inklüziv təhsilin inkişafı, pedaqoji kadr hazırlığında inklüziv təhsilin təşkili üzrə bilik və bacarıqlara əsaslanan təlim nəticələri əsasında tədrisin təşkili mühüm əhəmiyyət kəsb edir. Qeyd

etmək istəyirəm ki, Bakı Slavyan Universiteti İnklüziv təhsildən inklüziv cəmiyyətə platforması vasitəsi ilə ali təhsil müəssisələrinin vahid əməkdaşlıq alanını formalaşdırmağı hədəfləyir.

2023/24-cü tədris ilindən etibarən magistratura səviyyəsində keçiriləcək menecment ixtisasının kurs kataloqunda bu məsələlər öz əksini tapacaqdır.

**Əziz məzunlar,**

2019-cu ildə ali təhsilə başlayanda qarşıdakı dörd il ərzində sizi nələrin gözlədiyi haqqında təsəvvürünüz belə yox idi. Bu dövr həm ölkəmizdə, həm də dünyada mühüm tarixi əhəmiyyətli hadisələrlə yadda qaldı.

2020-ci il ölkəmizin tarixində zəfər ili, şərəfli tarix kimi əbədi həkk olundu. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin ərazi bütövlüyü təmin edildi, Şuşa, Ağdam, Laçın, Kəlbəcər və digər torpaqlarımız düşmən işğalından azad edildi. Biz Müzəffər Ali Baş Komandanımıza, onun rəşadətli ordusuna daim minnətdarlıq hissi ilə yaşayacağıq. Qazilərimizə tezliklə sağalmağı arzulayır, şəhidlərimizə rəhmət diləyirik. 44 gün ərzində silinməz zəfər tarixinin yazılmasında BSU-nun onlarla məzunu iştirak etmiş, Nicat Şükürlü, Kənan Rüstəmli və Elnur Allahverdizadə Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında şəhidlik zirvəsinə yüksəlmişdilər. BSU ailəsi, bütün xalqımız kimi, həmişə onların xatirəsini əziz tutacaqlar.

Bu gün, siz ali təhsili başa vurarkən qalib ölkənin vətəndaşları, zəfər çalmış ölkənin inkişafında iştirak edəcək şanslı gənc mütəxəssislər kimi bütöv Azərbaycanın inkişafı üçün yola düşürsünüz. Bu başlanğıcda hər birinizi təbrik edir, hər birinizə uğurlar arzu edirəm.

2020-ci ilin əvvələrində dünya  COVİD 19 pandemiyası ilə üz-üzə qalanda ölkəmizin təhsil sistemi ən tez adekvat reaksiya verən və təhsili tez bir zamanda bərpa edən sistemlər sırasında özünə yer aldı. Ölkəmizin digər ali təhsil müəssisələrində olduğu kimi, BSU-da də müəllimləriniz onlayn şəkildə, məsafədən sizə mühazirələr oxudu, biliklər öyrətdilər. İstər o dövrdə, istərsə də bütün təhsiliniz müddətində sizin öyrənməniz üçün, uğurlu vətəndaş və vətənpərvər insanlar kimi formalaşmağınız üçün əzm və fədakarlıq nümayiş etdirən bütün müəllimlərinizi, BSU-nun professor-müəllim heyətini alqışlayır və onlara təşəkkür edirəm.

**Əziz məzunlar,**

XXI əsr bilik əsridir. Zamanımızda biliyin qazanılması onun innovasiyalara çevrilməsi ilə tamamlanmalıdır. Bu müasir inkişafın tələbidir. İnnovativ tətbiqlər və yanaşmalar bizim uğurumuzun kökündə durur, innovativ həllər cəmiyyətin, təhsilin və

bütövlükdə iqtisadi inkişafın təməlini təşkil edir. Əminəm ki, təhsil aldığınız müddətdə qazandığınız bilik və bacarıqlar sizi daima müşayət edəcək, həyatınızın və peşəkar inkişafınızın bütün mərhələlərində sizə yardımçı olacaqdır.

Bununla yanaşı, unutmamalıyıq ki, müasir zaman ömürboyu öyrənməni labüd edir, dörd ildə əldə etdiyiniz bilik və bacarıqların davamlı şəkildə təkmilləşdirilməsini, yenilənməsini və əlavə bilik və bacarıqların öyrənilməsini tələb edir. Davamlı öyrənmək, yeni bacarıqlara sahiblənmək dövrün tələbidir. Unutmayın ki, BSU həmişə sizə dəstək olmağa, hər zaman sizin öyrənməniz və daha da inkişaf etməyiniz üçün imkanlar yaratmağa hazırdır.

Bu gün, burada xarici dil müəllimliyi, filologiya, ibtidai sinif müəllimliyi və digər pedaqoji ixtisaslar üzrə bitirən təxminən 700-dən çox tələbə bilməlidir ki, müəllim kimi fəaliyyətlərində onlarla əməkdaşlığa hazır olan BSU vardır.

Bu gün, burada beynəlxalq münasibətlər, regionşünaslıq, tərcüməçilik, jurnalistika və digər humanitar elmlər üzrə bitirən 300-ə yaxın məzunlarımız bilməlidirlər ki, onların yanında böyük BSU ailəsi vardır.

**Əziz məzunlar,**

Siz həyatınızın ən dinamik, əyləncə ilə dolu öyrənmə dövrünü yaşayırsınız. Həyatınızın bu çağında öyrəndiyiniz ən böyük məfhumlardan biri də özünüzsünüz. Məhz indi özünüzü öyrənir, ürəyinizlə danışmağı bacarırısınız. Özünüzə inamlı olmağı, hər bir qərarı ürəyinizlə verməyi tövsiyyə edirəm.

Xəyallar qurmaqdan çəkinməyin! Xəyyallarınızın gerçəkləşməsi üçün çalışın, təbii ki, əgər bu xəyallarınız məqsədlərə hədəflənibsə.

Yorulmaqdan və uğursuzluqlardan qorxmayın! Hər kəs, ən güclü insanlar da belə, həyatın müəyyən məqamlarında yorula bilirlər. Ancaq yorulmaq sizi hədəfinizdən saxlamalı deyil. Daha peşəkar, daha uğurlu və daha yüksək nəticələr verəcək mütəxəssis olmaq üçün, ailənizə, cəmiyyətə və dövlətə daha xeyirli insan olmaq üçün yolunuza davam edin.

Tələbələik illəri həyatın yadda qalan, gözəl dövrlərindəndir. Bu qisməti yaşadığınıza görə sizi təbrik edirəm. Bu yolda BSU-nu seçdiyiniz üçün isə sizə təşəkkür edirəm.

Biz tələbələrimizlə, məzunlarımzla güclüyük! BSU-nun dəyərlərini onun böyük ailəsinin hər bir üzvü formalaşdırır.

**Əziz məzunlar,**

Siz uzun və şərəfli bir yolun başlanğıcındasınız. Bu yolda, bəlkə də tez-tez savaşıb barışdığınız ürək dostlarınızın və rəfiqələrinizin, arxanızca su atan analar, nənələr, bacılarınızın, hər addımınızda sizə dəstəyini əsirgəməyən ailə üzvlərinizin, otaq yoldaşlarınızın, tələbə dostlarınızın dəstəyi bu yolu daha rahat, daha uğurlu, əyləncəli və zəngin edir. Bu səbəbdən, tələbəlik illərinizin yaxın sirdaşlarını, dəstəkçilərini və mənəvi qoruyucularını, yəni dostlarınızı və ailə üzvlərinizi alqışlayır, onlara təşəkkür edirəm!

Peşənizin dərinliklərinə sahib olmaq üçün dayanmadan çalışmış, bu gün olduğu kimi sabah da yanınızda olmağa hazır olan müəllimlərinizi alqışlayıram və onlara təşəkkür edirəm!

Bu müddət ərzində sizə dost olmağa, suallarınıza cavab axtarmağa çalışan, dərslərinizin təşkilini təmin edən dekanlarınıza və onlara kömək edən komanda üzvlərini alqışlayır və öz təşəkkürümü bildirirəm.

Bakı Slavyan Universiteti öz işini rəqabətə davamlı və müasir tələblərin əsasında qurur, səriştə əsaslı və keyfiyyətli təhsil mühitinin inkişafı üçün davamlı olaraq var gücü ilə çalışır. Universitetimiz tələbə yönlü təhsilin təşkilində daha böyük uğurlar qazanmağa qadirdir. Bu işdə gecə-gündüz çalışan bütün həmkarlarıma, komandanın üzvlərinə təşəkkür edirəm. Əminəm ki, hər yeni tədris ilində BSU daha böyük və yeni uğurlara imza atacaqdır.

**Əziz məzunlar,**

BSU bir dəyərdir. Hər birimizi bu dəyərin bir hissəsi olduğumuz üçün təbrik edir, bu dəyəri qorumağı, öz işiniz, vətəndaş mövqeyiniz, təhsilimizin, cəmiyyətin və bütövlükdə iqtisadiyyatın inkişafındakı töhfələrinizlə bu dəyəri daim yüksəklərdə tutmağı arzu edirəm.

Mən bir daha sizi təbrik edir, Sizə  gələcək həyatınızda uğurlar arzulayıram. Demək istəyirəm ki, sizin qarşınızda bütün imkanlar mövcuddur. Siz gözəl, qüdrətli ölkədə yaşayırsınız. Siz gözəl təhsil almısınız. Siz xarici dilləri bilirsiniz. Siz dünyaya inteqrasiya etməyə hazırsınız. Əminəm ki, siz tam formalaşmış peşəkarlar kimi istənilən təşəbbüsdə uğur qazana biləcəksiniz!

Mən sizə ancaq uğurlar arzulayır və ümid edirəm ki, siz bu gözəl şansı əldən verməyəsiniz, həyatda layiqli yer tutasınız və ölkəmizin inkişafına öz dəyərli töhfənizi verəsiniz.

Hər birinizi təbrik edirəm, hər bir başlanğıclarınızın böyük uğurlara vəsilə olmasını arzu edirəm.

Çıxışımın sonunda, hər birinizi özünüzü, ailənizi və bütöv BSU ailəsini alqışlamağa dəvət edirəm.

**Yolunuz açıq olsun!**